**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**QULAM HEYBƏT OĞLU ŞÜKÜROV**

# İNFORMASİYA HÜQUQU SAHƏSİNDƏ BEYNƏLXALQ HÜQUQ NORMALARI VƏ AZƏRBAYCAN RESPUBLİKASI QANUNVERİCİLİYİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

**İxtisas: 5603.01 - "Beynəlxalq hüquq; insan hüquqları"**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasında yerinə yetirilmiş, geniş müzakirə olunaraq əsas müdafiəyə tövsiyə edilmişdir.

**Elmi rəhbər:** **hüquq üzrə elmlər doktoru R.F.Məmmədov**

**Rəsmi opponentlər:** **hüquq üzrə elmlər doktoru E.Ə.Əliyev**

**hüquq üzrə fəlsəfə doktoru B.A.Məhərrəmov**

**Aparıcı təşkilat:** **AMEA Hüquq və İnsan haqları İnstitutu**

Dissertassiya işinin müdafiəsi "31" "10" 2016-cı il tarixdə saat "________" Bakı Dövlət Universitetinin nəzdindəki FD.02.013 Disertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, Bakı Dövlət Universiteti, I tədris binası, 901 saylı auditoriya.

Dissertassiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "_____" "_____________" 2016-cı il tarixdə göndərilmişdir.

**FD.02.013 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru:** **Ə.Q.Məmmədov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat işinin aktuallığı.** Bəşəriyyətin inkişaf tarixində insan həyatını dəyişdirən inqilabi xarakterli mərhələləri görməmək mümkün deyil. Belə mərhələlərdən biri də üçüncü sənaye dövrü kimi qiymətləndirilən və başlanğıcını keçən əsrin 70-80-ci illərindən götürən informasiya-kommunikasiya texnologiyaları dövrüdür. Müasir qloballaşma ilə gələn yeni ictimai münasibətlər də informasiya kommunikasiya texnologiyalarına strateji xüsusiyyət verməklə dövlətlər üçün yeni vəzifə və istiqamətlər müəyyən etmişdir. İnformasiya texnologiyalarının tətbiqi ilə ictimai münasibətlərin daha çevik və daha səmərəli tənzimlənməsi son nəticədə əmək məhsuldarlığının artmasına və bu istiqamətdə informasiyaya sahib olan sosial qrupların, fərdlərin cəmiyyətdə üstün mövqeyə malik olmasına gətirib çıxarır. Ictimai layihələrin həyata keçirilməsində, ölkənin iqtisadi və sosial böhranları uğurla dəf etməsində, vətəndaş cəmiyyətinin formalaşmasında, informasiya cəmiyyətinin qurulmasında informasiya resursları həlledici təhlükəsizlik elementinə çevrilir. Informasiya resursları bütün cəmiyyətin inkişafının, insanların həyat səviyyəsinin yüksəldilməsinin əlverişli vasitəsinə çevrilməkdədir. İnformasiya cəmiyyətinin qurulduğu ölkələrdə demokratik dəyərlər daha yüksək səviyyədə təmin olunur, insan hüquqları, söz azadlığı mühüm əhəmiyyətə malik olur. Həqiqi informasiya cəmiyyəti hər bir şəxsin öz problemlərini həll etməsi üçün zəruri olan bütün informasiyaları rahat və asan şəkildə, istənilən yerdə və istənilən vaxtda daha az məsrəflərlə əldə edə bilməsi üçün hüquqi və sosial təminatları formalaşdırır.

Informasiya cəmiyyəti üçün xarakterik olan hərtərəfli və dolğun informasiya mübadiləsi səmərəli sosial idarəetmə və insanların normal həyat fəaliyyəti üçün olduqca vacibdir. Informasiya mübadiləsi öz növbəsində çoxistiqamətli informasiya münasibətlərini şərtləndirir ki bu da sosial əhəmiyyət kəsb etməklə bir çox sahələrin, eləcə də hüquqi tənzimetmənin predmetini təşkil edir. Informasiya münasibətlərinin dinamik inkişafı bir tərəfdən fərdi hüquq və azadlıqların daha dolğun təmin olunmasına xidmət edirsə, digər tərəfdən bu sahədə insan təhlükəsizliyi, milli və beynəlxalq



təhlükəsizlik faktorlarını meydana gətirir. Hüquqi tənzimetmənin predmeti kimi informasiyaya olan şəxsi hüquq və azadlıqlar, fərdin, cəmiyyətin və dövlətin informasiya təhlükəsizliyinin qorunması, transsərhəd və qlobal informasiya məkanının, informasiya münasibətlərinin sahəvi elmi tənzimlənməsi problemlərinin də həllini zəruri edir.

Qlobal informasiya cəmiyyətinin formalaşdığı müasir dövrdə informasiya hüququ və azadlığı habelə informasiya təhlükəsizliyi üçün informasiya texnologiyalarının tətbiqi, dövlətlərin daxili qanunvericilik praktikası, beynəlxalq hüquq normalarının dərin və ətraflı təhlili xüsusi aktuallıq kəsb edir.

Informasiya hüququ və azadlığı ilə bağlı məsələlərin müzakirə edilməsinin aktuallığı onunla şərtlənir ki, hazırda informasiya mübadiləsi kiberməkanda baş verməkdədir. Beynəlxalq informasiya mübadiləsinin həyata keçirilməsi prosesində yaranan münasibətlərin dolğun və səmərəli hüquqi tənziminin təmin edilməsi məsələsini aktual və zəruri edən başlıca faktor müasir dövrdə İKT-dan beynəlxalq sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsi vəzifələri ilə bir araya sığmayan məqsədlərlə istifadə oluna bilməsi imkanı ilə bağlıdır. Həmin faktor bu sahədə dövlətlərin qarşılıqlı beynəlxalq hüquqi əməkdaşlığını zəruri edir.

İnformasiyalaşdırmanın məhz hansı nəticələrə səbəb olması dövlətin informasiya siyasətindən əhəmiyyətli dərəcədə asılıdır. Informasiya hüququ sahəsində dövlətin qanunvericilik siyasətinin əsas məqsədi eyni vaxtda iki mühüm vəzifəni təmin etməlidir. Şəxsi informasiya hüququ təminatlandırılmalı və bununla bərabər ümumi (publik) informasiya təhlükəsizliyi kontekstində digər şəxslərin, cəmiyyətin və dövlətin özünün informasiya təhlükəsizliyinin qorunması həyata keçirilməlidir. Bu zaman sui-istifadə hallarına yol verilməməli, informasiya hüququ sahəsində hər hansı məhdudiyyət konstitusiya və beynəlxalq hüquqla müəyyən edilən minimum standartlardan artıq olmamalıdır. Informasiya əldə etmək azadlığının özbaşına məhdudlaşdırıldığı şəraitdə bütün demokratik institutlar formal xarakter daşıyır, ayrı-ayrı fərdlərdən formalaşan xalq isə kənardan idarə olunan, təşəbbüssüz kütləyə çevrilir.

Bütün sahələrin qloballaşdığı bir şəraitdə hər hansı dövlətdə yaranan böhran, o cümlədən informasiya təhlükəsizliyi sahəsində problem yalnız həmin dövlətin hüdudları ilə məhdudlaşmamaqla,

çoxsaylı digər dövlətlərə də öz təsirini göstərir, qlobal informasiya təhlükəsizliyinə ciddi zərər dəymiş olur. Bu baxımdan qlobal informasiya cəmiyyətinin formalaşdığı bir şəraitdə milli təhlükəsizliyin əsas elementlərindən biri kimi informasiya təhlükəsizliyinin təmin edilməsinin aktuallığı və əhəmiyyəti əvvəlki dövrlərlə müqayisədə xeyli artmışdır. Bu sahədə transmilli təhdidlər informasiya təhlükəsizliyi probleminin qlobal xarakterli və bütün dövlətlərin səylərinin birləşdirilməsini tələb edən problem kimi xarakterizə olunmasını şərtləndirir.

Kütləvi informasiya vasitələrinin, elektron informasiya mübadiləsi sistemlərinin, eləcə də internetin geniş azadlığı və informasiya cəmiyyəti şəraitində insan hüquqlarının qorunması məsələsi daha da aktuallaşır. Müasir dövrdə bəşər sivilizasiyası qarşısında dayanan mühüm problemlərdən biri qlobal informasiya cəmiyyəti və İnternet şəbəkəsi kontekstində məhz insan hüquqlarının qorunmasından ibarətdir. Bu sahədə beynəlxalq standartların və xarici dövlətlərin müsbət təcrübəsinin kompleks tədqiqi həmin standartların və təcrübənin ölkəmizdə tətbiqi baxımından zəruri əhəmiyyət kəsb edir.

İnsan hüquqlarından biri kimi informasiya hüququnun anlayışı və xüsusiyyətlərinin milli və beynəlxalq hüquqi aspektlərinin elmi cəhətdən kifayət qədər araşdırılmaması həmin məsələlərin dərindən və kompleks şəkildə nəzəri tədqiqinin zəruriliyini şərtləndirir.

Azərbaycan Respublikasında informasiya azadlığının daha dolğun və səmərəli təmin edilməsi baxımından insan hüquqlarından biri kimi informasiya hüququnun anlayışı və xüsusiyyətlərinin, onun milli və beynəlxalq hüquqi aspektlərinin kompleks və sistemli təhlilinin aparılması və bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi üzrə konseptual xarakterli tövsiyələrin işlənib hazırlanması olduqca mühüm əhəmiyyət kəsb edir. Hazırda Respublikamızda informasiya hüququ və onun müxtəlif aspektlərinə həsr edilmiş kompleks elmi tədqiqatlara olduqca böyük ehtiyac vardır.

İnformasiyaya olan hüququn təbiəti, təsbiti və həyata keçirilməsi proseduru ilə bağlı beynəlxalq hüquq və dövlətdaxili qanunvericilik məsələləri Azərbaycan Respublikasında öyrənilməmişdir. Müasir şəraitdə kommersiya sirri, şəxsi sirr, dövlət sirri və s. ilə bağlı məsələlərin tənzimlənməsinin aktuallığı getdikcə



artır. Bu mənada informasiyaya olan hüququn anlayışı, hüquqi təbiəti ilə bağlı məsələlərin geniş və hərtərəfli şəkildə araşdırılması günümüzün tələbləri baxımından olduqca zəruridir.

**Problemin tədqiq edilmə səviyyəsi.** Respublikamızın hüquq ədəbiyyatında informasiya hüququnun bəzi məsələləri, o cümlədən informasiya, fikir, söz və mətbuat azadlığının ayrı-ayrı nəzəri və praktiki məsələlərini özündə əks etdirən müxtəlif elmi məqalələr yazılsa da, son illərin reallıqları nəzərə alınmaqla, məsələyə müasir prizmadan yanaşaraq, insan hüquqlarından biri kimi informasiya hüququnun anlayışının milli və beynəlxalq hüquqi aspektləri ilə bağlı məsələlərin kompleks şəkildə və dissertasiya tədqiqatı səviyyəsində elmi araşdırılmasına həsr olunmuş əsərlər yazılmamışdır.

Dissertasiya tədqiqatının nəzəri əsasını informasiya cəmiyyəti, informasiya hüququ və azadlığı sahəsində tanınmış alimlərdən: Abramova A.V., Aldesko A., Barr K., Baçilo İ.L., Beiting M., Bidqoli N., Davis E.S., Draker P., Evans G.E., Forester T., Grezeskinski A., Xalfina R.O., İvanov A.K., Kardaşov İ.B., Kastels M., Keyser M., Kərimov D.A., Kopılov V.A., Lessig L., Morozov A.V., Movlana H., Naumov V.B., Nisneviç Y.A., Pazyuk A.V., Piqolkin A.S., Prosvirnina Y.Q., Rassolov İ.M., Rice D., Seyçel D., Tereşenko L.K., Toffler E., Zabara İ.N., Şennon K., Volf J.B., Zadorojnıy A.V. və d. elmi əsərləri təşkil etmişdir.

Ümumi nəzəri əsas kimi azərbaycanlı müəlliflərdən Əliyev Ə.İ., Əsgərov Z., Hüseynov T.I., Hüseynov L.H., Məlikova M., Məmmədov R.F., Məmmədov R.K., Məmmədov Ə.Q., Aslanov R.M., Sadıqov Ə.İ və d. əsərlərindən istifadə edilmişdir.

**Tədqiqatın obyektini** informasiya hüquq və azadlıqlarının təmin olunması ilə bağlı məsələlər təşkil edir.

**Tədqiqatın predmetini** informasiya hüququnun nəzəri və təcrübi məsələləri, habelə milli və beynəlxalq hüquq normalarının müqayisəli təhlili təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi insan hüquqlarından biri kimi informasiya hüququnun anlayışının milli və beynəlxalq hüquqi aspektlərini, informasiya sahəsində beynəlxalq hüquqi əməkdaşlığın həyata keçirilməsi ilə bağlı məsələləri elmi cəhətdən və kompleks şəkildə tədqiq etmək, Azərbaycan Respublikasında informasiya sahəsinin hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi, habelə informasiya sahəsində yaranan

münasibətlərin hüquqi tənzimlənməsi ilə bağlı yaranan problemləri aşkara çıxarmaq və onların beynəlxalq standartlara uyğun həlli yollarını təklif etməkdən ibarətdir. Göstərilən məqsədə nail olmaq üçün tədqiqat işində qarşıya aşağıdakı **vəzifələr** qoyulmuşdur:

– informasiya termininin sosioloji və hüquqi yükünün müəyyən edilməsi;

– informasiya cəmiyyətində hüquq normalarının tənzimetmə xüsusiyyətlərinin müəyyən edilməsi;

– informasiya təhdidlərinin qarşılanması məqsədilə informasiya təhlükəsizliyinin hüquqi tənzimlənməsinin anlayışının müəyyən edilməsi;

– informasiya münasibətləri üzrə hüquqi tənzimetmə modellərinin şərh edilməsi;

– informasiya münasibətlərinin hüquqi tənzimlənməsinə elmi-metodoloji yanaşmanın istiqamətlərinin tədqiq edilməsi;

– informasiya münasibətlərinin təzahür etdiyi sferaya uyğun olaraq hüquqi tənzimetmənin xüsusiyyətlərinin şərh edilməsi;

– informasiya resurslarının əldə edilməsi, ötürülməsi, istifadəsi üzrə müasir kütləvi vasitələrin, internetin hüquqi tənzimlənməsi xüsusiyyətlərinin araşdırılması;

– informasiya hüququnun insan hüquqları sistemində yerinin qiymətləndirilməsi;

– informasiyaya olan fərdin hüququnun hüquqi təbiətinin müəyyən edilməsi;

– fərdi informasiya hüququnun məhdudlaşdırılmasının beynəlxalq və dövlətdaxili hüquqi meyarlarının öyrənilməsi;

– informasiya hüququnun, o cümlədən informasiya təhlükəsizliyinin təmin edilməsi sferasında hüquqi məsuliyyətin xüsusiyyətlərinin tədqiq edilməsi;

– informasiya təhlükəsizliyi üzrə beynəlxalq əməkdaşlığın forma və istiqamətlərinin müəyyən edilməsi;

– qlobal informasiya məkanında informasiya münasibətləri üzrə beynəlxalq hüquq normalarının araşdırılması;

– informasiya hüququ sahəsində beynəlxalq hüquq normalarının daxili qanunvericilik üçün əhəmiyyətinin öyrənilməsi və daxili qanunvericilikdə həyata keçirilməsinin konstitusiya və ayrı-ayrı qanunvericilik səviyyəsində həyata keçirilməsinin xüsusiyyətlərinin tədqiq edilməsi;



– sadalanan hər bir vəzifə üzrə daxili qanunvericilik üçün müvafiq tövsiyə və təkliflərin hazırlanması.

**Tədqiqatın metodoloji əsasları.** Dissertasiya işinin yazılması prosesində həm ümumelmi metodlar (mücərrəddən konkretə keçmə, sistemli-funksional yanaşma, formal-məntiqi (analitik), tarixi yanaşma metodu), həm də xüsusi hüquq elmləri metodlarından (müqayisəli hüquqşünaslıq, sistemli təhlil, nəzəri, normativ və praktiki materialların ümumiləşdirilməsi, induksiya və deduksiya) və s. metodlardan istifadə edilmişdir.

**Tədqiqatın normativ əsasını** Azərbaycan Respublikasının Konstitusiyası, informasiya, informasiyalaşdırma və informasiya təhlükəsizliyi ilə bağlı beynəlxalq hüquqi aktlar, habelə Azərbaycan Respublikasının qanunları və digər dövlətlərin normativ hüquqi aktları təşkil etmişdir.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, o, Azərbaycan Respublikası beynəlxalq hüquq elmində insan hüquqlarından biri kimi informasiya hüququnun anlayışının müxtəlif aspektlərinin və hüquqi problemlərinin bu sahədə milli qanunvericilik, beynəlxalq hüquqi aktlar və xarici dövlətlərin təcrübəsi nəzərə alınmaqla kompleks tədqiqinə həsr olunmuş monoqrafik xarakterli ilk tədqiqat işidir. İlk dəfə olaraq fərdi informasiya hüquq və azadlıqlarının mahiyyəti, fərdi informasiya hüquq və azadlıqları ilə publik qaydanın qarşılıqlı nisbəti, informasiya təhlükəsizliyinin humanist aspekti, informasiya, onun əldə edilmə vasitələri və hüquqi təminat sistemi, informasiya münasibətlərinin hüquqi tənzimetmə modelləri, bu sahədə metodoloji yanaşmalar, informasiyanın əldə edilməsinin müasir vasitələri, internet provayderlərinin hüquqi statusu, informasiya hüququnun formalaşmasında kütləvi informasiya vasitələrinin rolu, informasiya hüququnun müasir vasitəsi kimi internetin hüquqi tənzimlənməsi, informasiya hüququnun təminat (hüquqi məsuliyyət) problemi, informasiya təhlükəsizliyi üzrə beynəlxalq əməkdaşlığın forma və istiqamətləri, qloballaşan müasir dövrün transsərhəd informasiya münasibətlərinin beynəlxalq hüquqi tənzimlənməsinin xüsusiyyətləri, informasiya hüquq münasibətlərinin tənzimi sahəsində beynəlxalq və milli təşkilati

mexanizmlər, informasiya hüququ sahəsində beynəlxalq standartların dövlətdaxili qanunvericiliyə implementasiyası tədqiq edilir.

Aparılmış tədqiqatlar nəticəsində mühüm nəzəri və praktiki əhəmiyyətə malik bir sıra aşağıdakı yeni **elmi müddəalar** irəli sürülür:

1. İnformasiyanın anlayışı ilə bağlı qanunvericilikdə təkrarçılığın olmasına diqqət çəkilərək onun aradan qaldırılmalı olduğu qeyd edilir. Hesab edilir ki, bu problem həll edilərkən daha sistemli və əhatəli olduğundan «İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» Azərbaycan Respublikası Qanununun 2-ci maddəsindəki anlayış əsas götürülməlidir.

2. Aparılan təhlillər əsasında informasiyanın aşağıdakı xüsusiyyətləri fərqləndirilir: mötəbərlik; aktuallıq; tamlıq; dəqiqlik; düzgünlük; əlçatanlıq; sistemlilik; ideallıq; universallıq; kütləvilik; informasiya və onun əks olunduğu maddi daşıyıcının vəhdəti; məhdudlaşdırıla bilmə; fiziki cəhətdən məhv edilə bilməmə; yayıla (ötürülə) bilmə; dəyərlilik; vaxtlı-vaxtında olma; anlaşıqlılıq; müxtəsərlik; faydalılıq və s. Hüquqi tənzimetmənin obyekti kimi isə informasiyanın hüquqi əhəmiyyətli əlamətlərinə iddiaçı aşağıdakıları aid edilir: qeyri-maddi xarakter daşıması (daşıyıcıya münasibətdə müstəqillik); subyektiv xarakter daşıması (informasiya şüurlu subyektin əqli fəaliyyəti nəticəsində yaranır); hüquqi dövriyyəyə daxil edilməsi üçün obyektivləşdirilməsi zərurəti; kəmiyyət müəyyənliyi; dəfələrlə istifadə imkanı; göndərilən informasiyanın göndərən subyektdə qalması (saxlanılması) imkanı; təkrar istehsalının, köçürülməsinin, saxlanılmasının və toplanılmasının mümkünlüyü.

İnformasiya resursları informasiyanın növünə və ya onun istifadə sahəsinin xarakterinə görə aşağıdakı növlərə bölünür: sosial informasiya; hüquqi informasiya; elmi-texniki informasiya; iqtisadi informasiya; statistik informasiya; səhiyyə haqqında informasiya; mədəniyyət və təhsil haqqında informasiya; fövqəladə hallarla bağlı informasiya və s.

3. İnformasiya hüquq münasibətinin subyektinin statusunu müəyyən edilməsi baxımdan "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanunun 1-ci maddəsində müəyyən qusurların mövcudluğu qeyd edilir və göstərilir ki, orada "...informasiya proseslərində iştirak edən



subyektlərin hüquqlarının müəyyən edilməsi..." ifadə edilsə də, onların vəzifələrinin tənzimlənməsi unudulub. Həmçinin göstərilən qanunun 2-ci maddəsində "informasiyalaşdırma"ya verilən anlayışda "vətəndaşların" sözünün əvəzinə "şəxslərin" sözündən istifadə edilməsi daha məqsədəmüvafiq hesab edilir.

4. Hesab edilir ki, "Diffamasiya haqqında qanun"un qəbul edilməsi zamanı inkişaf etmiş ölkələrin təcrübəsi və mütərəqqi beynəlxalq standartlar nəzərə alınaraq və yerli şəraitə və ənənələrə uyğunlaşdırılaraq implementasiya edilməlidir.

5. Göstərilir ki, müasir dövrdə bəşər sivilizasiyası qarşısında dayanan mühüm və aktual problemlərdən biri qlobal informasiya cəmiyyəti və İnternet şəbəkəsi kontekstində məhz insan hüquqlarının qorunmasından ibarətdir. İnsan hüquqları və internet idarəçiliyi bir-biri ilə qırılmaz surətdə əlaqəlidir. İnternet və insan hüquqları bir-birini qarşılıqlı surətdə tamamlayır. Ona görə də insan hüquq və azadlığını off-line və on-line rejimə bölünməsi düzgün hesab edilmir.

Mütərəqqi beynəlxalq standartlar və təcrübə baxımından hesab edilir ki, hazırlanan mühüm və ictimai əhəmiyyətli qərar layihələrinin İnternetdə müzakirəsinin təşkil edilməsi xalqın rəyinin və istəklərinin öyrənilməsi baxımından əhəmiyyətli olardı. Birbaşa demokratiyanın və vətəndaş cəmiyyətinin daha da möhkəmlənməsinə xidmət edən belə müzakirələri təşkil etmək və nəticələrini nəzərə almaq qanunvericilikdə məmurların vəzifəsi kimi müəyyən edilməlidir. Xüsusən də, İnternet texnologiyası vasitəsilə icra hakimiyyəti orqanlarının fəaliyyətinin informasiya şəffaflığının təmin edilməsi üçün hüquqi əsas yaradılması zəruri hesab edilir.

Bundan başqa, qlobal informasiya cəmiyyəti və İnternet şəbəkəsi kontekstində məhz insan hüquqlarının qorunması kontekstində aşağıdakı təkliflər də irəli sürülür:

- qlobal informasiya proseslərinin və bu sahədə yaranan münasibətlərin hərtərəfli hüquqi tənzimlənməs zərurəti baxımından İnternetin idarə edilməsi üzrə beynəlxalq qurumun yaradılması;

- İnternet resurslarının məzmununun yoxlanılması, bu sahədə şikayətləri araşdırılması ilə məşğul olan qurum fəaliyyət göstərməsi (Provayder həmin qurumdan məzmunun qanunazidd olması barədə məlumat aldıqdan sonra materialı serverdən silməlidir);

- “Kütləvi informasiya vasitələri haqqında” Qanunda internet materiallarının da kütləvi informasiya vasitələri məhsullarına aid edilməsi ilə bağlı konkret normanın təsbit edilməsi;

- qanunvericilikdə İnternet istifadəçilərinin öz fərdi məlumatlarını üçüncü şəxslərdən gizli saxlamaq vəzifəsinin təsbit edilməsi (belə məlumatların istifadəçinin təqsiri üzündən üçüncü şəxslərə məlum olması nəticəsində dəyən zərərə görə provayder deyil, istifadəçi özü məsuliyyət daşımalıdır);

- Bütövlükdə isə ölkəmizdə Internet xidmətlərinin göstərilməsi sahəsində fəaliyyətin vahid hüquqi əsasının (bazasının) müəyyən edilməsi, Internet xidmətlərinin həcminin və keyfiyyətinin davamlı artırılması, beynəlxalq standartlara çatdırılması və şəxsiyyətin, cəmiyyətin və dövlətin informasiya təhlükəsizliyinin daha da gücləndirilməsi, insan və vətəndaşların informasiya əldə etmək və yaymaq hüququnun dolğun və səmərəli şəkildə təmin edilməsi üçün “İnternet xidmətlərinin göstərilməsinin hüquqi tənzimlənməsi haqqında” ayrıca qanun qəbul edilməsi.

6. “İnformasiya əldə edilməsi haqqında” qanuna aşağıdakı məzmunda normanın əlavə edilməsi məqsədəmüvafiq hesab edilir: “9.3.3. ictimai funksiyalar yerinə yetirməyən özəl hüquqi şəxslər - digər şəxslərin hüquqlarının həyata keçirilməsi və ya müdafiəsi tələb olunduğu halda”.

7. İnsan hüquqları üzrə müvəkkilin saytında ictimai funksiyalar yerinə yetirən və qanunla vətəndaşlara informasiya təqdim etmək vəzifəsi daşıyan orqanların siyahısının mütəmadi olaraq dərc olunması Azərbaycanda informasiya azadlığının daha dolğun təmin olunması baxımından zəruri hesab edilir. Habelə vətəndaşların informasiya hüquqlarının pozulması hallarının qarşısının alınması və bu hüquqların daha dolğun təmin olunması baxımından bir çox dünya dövlətlərinin təcrübəsində olduğu kimi ayrıca Media Ombudsmanı təsisatının yaradılması məqsədəmüvafiq hesab edilir.

8. Müstəqil konstitusion hüquq kimi informasiyaya olan subyektiv hüquqa “insan və vətəndaşların bilavasitə onların hüquq və azadlıqlarına toxunan sənəd və məlumatlarla tanış olmaq üçün dövlət və yerli özünüidarə qurumlarına və vəzifəli şəxslərə müraciət etmək imkanı da daxil olmaqla, qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, istənilən informasiyanın qanuni yolla sərbəst surətdə



axtarılması, əldə olunması, yayılması, saxlanılması, ötürülməsi, hazırlanması, habelə informasiya ilə bağlı digər hüquqi imkanlar” kimi anlayış verilir.

9. İnformasiya fəaliyyəti sahəsində hüquq pozuntularına görə məsuliyyət informasiya hüququnun mühüm tərkib hissəsi kimi xarakterizə edilir, informasiya məsuliyyəti qanunla müəyyən olunmuş prosessual forma və prosedurlar çərçivəsində informasiya hüquq pozuntusu törətmiş təqsirli şəxsə pozulmuş informasiya hüquq normasının sanksiyası ilə nəzərdə tutulmuş təsir tədbirlərinin tətbiqi kimi müəyyən edilir. İnformasiya hüquq pozuntusunun ümumi əlamətlərinə hüquqazidlik, ictimai təhlükəlilik, təqsirlilik, xüsusi əlamətlərinə isə informasiya sahəsində törədilməsi, informasiya vasitələrindən istifadə edilməklə törədilməsini aid edilir və bu əlamətlərə əsasən informasiya hüquq pozuntusuna “informasiya sahəsində informasiya vasitələrindən istifadə edilməklə törədilən hüquqazidd, ictimai təhlükəli, təqsirli əməl (hərəkət və hərəkətsizlik)” kimi anlayış verilməsi təklif edilir.

İnformasiya sahəsində hüquq pozuntusunun obyektiv tərəfinin əsas əlamətlərinə aşağıdakıları aid edilir: a) hərəkət və ya hərəkətsizliklə informasiya sahəsində hüquq normalarının pozulması; b) şəxsiyyətin, cəmiyyətin və ya dövlətin informasiya maraqlarına zərər vurulması; c) informasiya sahəsində ictimai təhlükəli əməllə nəticə arasında səbəbli əlaqənin olması.

10. İnformasiya təhlükəsizliyinin anlayışı və mahiyyəti ilə bağlı hüquq ədəbiyyatında irəli sürülən fikirlərin və informasiya təhlükəsizliyi ilə bağlı beynəlxalq aktların və xarici ölkələrin qanunvericiliyinin təhlili və ümumiləşdirilməsi əsasında informasiya təhlükəsizliyinə aşağıdakı kimi anlayış verilməsi təklif edilir: “İnformasiya təhlükəsizliyinin hüquqi istiqamətini istənilən təhdidi qarşılaya biləcək normativ-hüquqi şəraitin, maddi və institusional mexanizmlərin formalaşdırılması təşkil edir. İnformasiya təhlükəsizliyi şəxsiyyətin, cəmiyyətin və dövlətin zərərli və ya hüquqazidd informasiyalardan müdafiə olunmuş vəziyyətini ifadə edən, informasiyanı və informasiya sistemlərini qanunsuz girişdən və ya informasiyanın dəyişdirilmədən və məhv edilmədən mühafizəsini, informasiya sahəsində müxtəlif təhdidlərin aşkar edilməsi və neytrallaşdırılması üzrə tədbirlərin görülməsini nəzərdə tutan mürəkkəb kateqoriyadır”.

Hesab edilir ki, qanunvericiliyimizdə, xüsusən də "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunun (İnformasiyanın müdafiəsi adlanan) 5-ci fəslində informasiya təhlükəsizliyinin anlayışı verilə, bu fəslin adı "İnformasiya təhlükəsizliyi və informasiyanın müdafiəsi" kimi ifadə edilə bilər.

11. Beynəlxalq informasiya təhlükəsizliyi "informasiya məkanında dünyada stabilliyin pozulmasını və dövlətlərin təhlükəsizliyi üçün təhdidlərin yaradılmasını istisna edən beynəlxalq münasibətlər vəziyyəti" kimi müəyyən edilir.

Beynəlxalq informasiya mübadiləsində beynəlxalq hüquqi tənzimetmənin aşağıdakı problemlərlə bağlı olaraq daha da aktuallaşdığı qeyd edilir: a) informasiya texnologiyalarından silah kimi istifadə edilməsi; b) informasiya terrorizmi; c) kompüter cinayətkarlığı; d) fərdi məlumatların və şəxsi həyatın toxunulmazlığının təmin edilməsi; e) müəlliflik hüququ və əlaqəli hüquqların qorunması; ə) müxtəlif sosial şəbəkələr və ictimai təhlükəsizlik; f) uşaqların və yeniyetmələrin psixoloji sağlamlığı və tərbiyəsi; g) virtual asılılıq və s.

İnformasiya hüququ sahəsində beynəlxalq müqavilə normalarına eləcə də, beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə münasibət ifadə edilməsinin, beynəlxalq müqavilə normalarının Konstitusiyamızın istisna ilə bağlı formulu nəzərə alınmaqla prioritetinin qanunvericilik qaydasında təsbit edilməsinin zəruriliyi əsaslandırılır.

**Tədqiqatın nəzəri əhəmiyyəti** onunla müəyyən olunur ki, burada irəli sürülən müddəalar, əldə edilən nəticələr və irəli sürülən təkliflər konstitusiya hüququnun elmi bazasını daha da zənginləşdirməklə onun informasiya hüququ və informasiya təhlükəsizliyi sferasında yaranan münasibətləri tənzim edən bölməsini inkişaf etdirir və tamamlayır. Həmçinin tədqiqat işi Azərbaycan Respublikasında informasiya azadlığının hüquqi problemlərinə və bu sahədə qanunvericiliyin təkmilləşdirilməsinə həsr olunmuş gələcək tədqiqatların aparılması üçün nəzəri baza rolunda çıxış edə bilər. Tədqiqat işində əsas insan hüquqlarından biri kimi informasiya hüququnun nəzəri və praktiki məsələləri ümumiləşdirilir, bu sahədə kateqoriya-anlayış aparatı dəqiqləşdirilir.



**Tədqiqatın təcrübi əhəmiyyəti.** Tədqiqatın nəticələrindən informasiya qanunvericiliyinin təkmilləşdirilməsində istifadə oluna bilər. Dissertasiyada informasiya azadlığı ilə bağlı öz əksini tapan nəzəri müddəalardan "Konstitusiya hüququ" kursunun müvafiq bölməsinin, habelə "İnformasiya hüququ" kursunun tədrisi prosesində mühazirələrin oxunması və məşğələlərin aparılması zamanı, habelə «Konstitusiya hüququ», "İnformasiya hüququ" kursuna dair dərsliklərin və metodiki vəsaitlərin hazırlanmasında istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universitetinin "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasında yerinə yetirilmiş və müzakirə olunmuşdur. Dissertasiyanın əsas müddəaları müəllifin nəşr olunmuş elmi işlərində və elmi konfranslardakı çıxışlarında şərh edilmişdir.

**Dissertasiya işinin strukturu** tədqiqatın məqsədləri, vəzifələri və metodologiyası ilə şərtlənir. Dissertasiya işi girişdən, 11 yarımfəsli əhatə edən 3 fəsildən, qanunvericiliyin təkmilləşdirilməsi üzrə tövsiyələrin ifadə olunduğu nəticədən və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** seçilmiş mövzunun aktuallığı əsaslandırılır, onun elmi cəhətdən işlənməsi dərəcəsi işıqlandırılır, tədqiqatın məqsəd və vəzifələri müəyyən edilir, müdafiəyə çıxarılan əsas müddəalar formalaşdırılır və işin təcrübi əhəmiyyəti açıqlanır.

**"İnformasiya, onun əldə edilmə vasitələri və hüquqi təminat sistemi"** adlanan birinci fəsil üç yarımfəsildən ibarətdir.

**"İnformasiya, informasiya cəmiyyəti və informasiya məkanı"** adlanan birinci yarımfəsildə göstərilir ki, informasiyanın inkişaf resursu kimi dəyər əldə etməsilə onun hüquqi tənzimlənməsi zərurəti yaranır. Hüquqi tənzimetmə isə bir sıra kateqoriyaların hüquqi məzmununun araşdırılmasını tələb edir. Bunlardan «informasiya», «informasiya cəmiyyəti», «informasiya məkanı», «informasiya təhlükəsizliyi», «informasiya hüququ» və s. terminlərin məzmunu müəyyən edilmədən hüquqi tənzimetmənin səmərəliliyindən danışmağa dəyməz.

Müəllif informasiyanın anlayışı ilə bağlı qanunvericilikdə təkrarçılığın olmasına diqqət çəkərək onun aradan qaldırılmalı olduğunu qeyd edir. Onun fikrincə, bu problem həll edilərkən daha sistemli və əhatəli olduğundan «İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» Azərbaycan Respublikası Qanununun 2-ci maddəsindəki anlayış əsas götürülməlidir.

Müəllif *hüquq sistemində yerinə görə* hüquqi və qeyri-hüquqi informasiyaları, *əlçatanlıq dərəcəsinə görə* isə açıq və məhdudlaşdırılmış informasiyaları fərqləndirir. Hüquqi informasiya normativ hüquqi və qeyri-normativ hüquqi informasiyaya bölünür. Normativ hüquqi informasiya hüquq yaradıcılığı fəaliyyəti qaydasında yaradılır və normativ hüquqi aktlarda öz əksini tapır. Qeyri-normativ hüquqi informasiya hüquq tətbiqi və hüquq mühafizə fəaliyyəti qaydasında yaradılır. İddiaçı qeyri-normativ hüquqi informasiyaya qanunçuluq və hüquq qaydasının vəziyyəti haqqında ümumi məlumatları, mülki hüquq münasibətləri, müqavilə və digər öhdəliklər barədə, habelə hüquq pozuntularının araşdırılması ilə bağlı məlumatları aid edir. müəllifə görə açıq informasiyaya kütləvi informasiya, seçkilər haqqında informasiya, rəsmi sənədlər və s., məhdudlaşdırılmış informasiyaya dövlət sirri, peşə sirri, həkim sirri, kommersiya sirri, vəkil sirri, notariat sirri və s. aiddir.

Müəllif apardığı təhlillər əsasında informasiyanın aşağıdakı xüsusiyyətlərini qeyd edir: mötəbərlik; aktuallıq; tamlıq; dəqiqlik; düzgünlük; əlçatanlıq; sistemlilik; ideallıq; universallıq; kütləvilik; informasiya və onun əks olunduğu maddi daşıyıcının vəhdəti; məhdudlaşdırıla bilmə; fiziki cəhətdən məhv edilə bilməmə; yayıla (ötürülə) bilmə; dəyərlilik; vaxtlı-vaxtında olma; anlaşıqlılıq; müxtəsərlik; faydalılıq və s. Hüquqi tənzimetmənin obyekti kimi isə informasiyanın hüquqi əhəmiyyətli əlamətlərinə iddiaçı aşağıdakıları aid edir: qeyri-maddi xarakter daşıması (daşıyıcıya münasibətdə müstəqillik); subyektiv xarakter daşıması (informasiya şüurlu subyektin əqli fəaliyyəti nəticəsində yaranır); hüquqi dövriyyəyə daxil edilməsi üçün obyektivləşdirilməsi zərurəti; kəmiyyət müəyyənliyi; dəfələrlə istifadə imkanı; göndərilən informasiyanın göndərən subyektdə qalması (saxlanılması) imkanı; təkrar istehsalının, köçürülməsinin, saxlanılmasının və toplanılmasının mümkünlüyü.



İddiaçının fikrincə, informasiya resursları informasiyanın növünə və ya onun istifadə sahəsinin xarakterinə görə aşağıdakı növlərə bölünür: sosial informasiya; hüquqi informasiya; elmi-texniki informasiya; iqtisadi informasiya; statistik informasiya; səhiyyə haqqında informasiya; mədəniyyət və təhsil haqqında informasiya; fövqəladə hallarla bağlı informasiya və s.

**Birinci fəslin "İnformasiya münasibətlərinin hüquqi tənzimetmə modelləri və metodoloji yanaşma"** adlanan ikinci yarımfəslində tədqiqatçı göstərir ki, informasiya hüquq münasibətinin subyektinin statusunu müəyyən etmək üçün "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanuna müraciət etmək lazımdır. Müəllif həmin Qanunun 1-ci maddəsində müəyyən qusurların mövcudluğunu qeyd edərək göstərir ki, orada "...informasiya proseslərində iştirak edən subyektlərin hüquqlarının müəyyən edilməsi..." ifadə edilsə də, onların vəzifələrinin tənzimlənməsi unudulub. Həmçinin müəllif göstərilən qanunun 2-ci maddəsində "informasiyalaşdırma"ya verilən anlayışda "vətəndaşların" sözü əvəzinə "şəxslərin" sözündən istifadə edilməsini daha məqsədəmüvafiq hesab edir.

İddiaçının fikrincə, informasiya hüquq münasibətlərinin tənzimetmə modeli, həm də siyasi sistemin fəaliyyət formasını göstərir. Informasiyaya olan hüququn qanunvericilik qaydasında təsbitinin sosial təyinatını və şərtini insanın, cəmiyyətin və dövlətin informasiya tələbatlarının hüquqi təminatına olan obyektiv zərurət təşkil edir. Informasiya sahəsində yaranan ictimai münasibətlər insan və vətəndaşların informasiya hüquq və azadlıqlarının həyata keçirilməsi ilə bağlı informasiya hüquq normalarının tənzimetmə predmetini təşkil edir.

Tədqiqatçı dövlətlərin informasiya hüquq münasibətlərinin tənzimlənməsi sahəsində siyasətlərini analiz edərək informasiya hüququna çıxışla bağlı Kontinental (Avropa) modeli, Anqlo-amerikan modelini, Asiya modelini fərqləndirərək onların özünəməxsus xüsusiyyətlərini qeyd edir.

**Birinci fəslin «İnformasiyanın əldə edilməsinin müasir vasitələri (internet provayderlərinin hüquqi statusu)»** adlanan üçüncü yarımfəslində göstərilir ki, KİV-lərin iqtisadi müstəqilliyinin təmin edilməsi istiqamətində çoxsaylı tədbirlər həyata keçirilməsinə

baxmayaraq, onların maddi-texniki bazalarının zəif olması aktual problemlərdəndir. Həmçinin kütləvi informasiya vasitələrində qanunvericiliyinin tələblərinin pozulması, vətəndaşların təhqir və şantaj edilməsi, onların şərəf və ləyaqətinin alçaldılması faktlarının mövcudluğu jurnalistlərin peşəkarlığının artırılması sahəsində əməli tədbirlər həyata keçirilməsini zərurətə çevirmişdir. Müəllif hesab edir ki, "Diffamasiya haqqında qanun"un qəbul edilməsi zamanı inkişaf etmiş ölkələrin təcrübəsi və mütərəqqi beynəlxalq standartlar nəzərə alınaraq və yerli şəraitə və ənənələrə uyğunlaşdırılaraq implementasiya edilməlidir.

Müasir dövrdə informasiya texnologiyaları çox sürətli şəkildə inkişaf edir, təkmilləşir, dəyişir və yeniləri ilə əvəz edilir. Müəllif konkret informasiya texnologiyaları ilə bağlı münasibətlərin hüquqi tənzimində də bu tendensiyanın nəzərə alınmasını məqsədəmüvafiq hesab edir.

İddiaçının fikrincə, müasir dövrdə bəşər sivilizasiyası qarşısında dayanan mühüm və aktual problemlərdən biri qlobal informasiya cəmiyyəti və İnternet şəbəkəsi kontekstində məhz insan hüquqlarının qorunmasından ibarətdir. İnsan hüquqları və internet idarəçiliyi bir-biri ilə qırılmaz surətdə əlaqəlidir. İnternet və insan hüquqları bir-birini qarşılıqlı surətdə tamamlayır. Ona görə də insan hüquq və azadlığını off-line və on-line rejimə bölmək düzgün deyildir.

Müəllif hesab edir ki, İnternetdə ifadə azadlığı qeyri-məhdud xarakter daşıya bilməz və cəmiyyətin, şəxsiyyətin və dövlətin təhlükəsizlik maraqlarına, habelə ölkədə ictimai qaydaya zərər vurmayacaq həddə reallaşdırıla bilər.

Tədqiqatçı mütərəqqi beynəlxalq standartlar və təcrübə baxımından hesab edir ki, hazırlanan mühüm və ictimai əhəmiyyətli qərar layihələrinin İnternetdə müzakirəsinin təşkil edilməsi xalqın rəyinin və istəklərinin öyrənilməsi baxımından əhəmiyyətli olardı. Birbaşa demokratiyanın və vətəndaş cəmiyyətinin daha da möhkəmlənməsinə xidmət edən belə müzakirələri təşkil etmək və nəticələrini nəzərə almaq qanunvericilikdə məmurların vəzifəsi kimi müəyyən edilməlidir. Xüsusən də, İnternet texnologiyası vasitəsilə icra hakimiyyəti orqanlarının fəaliyyətinin informasiya şəffaflığının təmin edilməsi üçün hüquqi əsas yaradılmalıdır.



Müasir dövrdə qlobal informasiya proseslərinin və bu sahədə yaranan münasibətlərin hərtərəfli hüquqi tənzimlənməsinə ciddi zərurətin olduğunu qeyd edən müəllif İnternetin idarə edilməsi üzrə beynəlxalq qurumun yaradılmasını əhəmiyyətli hesab edir. İnternet resurslarının məzmununun yoxlanılması, bu sahədə şikayətləri araşdırılması ilə məşğul olan qurum fəaliyyət göstərməlidir. Provayder həmin qurumdan məzmunun qanunazidd olması barədə məlumat aldıqdan sonra materialı serverdən silməlidir.

Iddiaçı göstərir ki, "Kütləvi informasiya vasitələri haqqında" Qanunun 3-cü maddəsində internet kütləvi informasiya vasitələrinə aid edilsə də, orada internet materiallarının kütləvi informasiya vasitələrinə aid edilib-edilməməsi məsələsinə aydınlıq gətirilməmişdir. Ona görə də, o, həmin Qanunda internet materiallarının da kütləvi informasiya vasitələri məhsullarına aid edilməsi ilə bağlı konkret norma təsbit edilməsini təklif edir.

Müəllifin fikrincə, qanunvericilikdə İnternet istifadəçilərinin öz fərdi məlumatlarını üçüncü şəxslərdən gizli saxlamaq vəzifəsi təsbit edilməlidir. Belə məlumatların istifadəçinin təqsiri üzündən üçüncü şəxslərə məlum olması nəticəsində dəyən zərərə görə provayder deyil, istifadəçi özü məsuliyyət daşımalıdır.

Bütövlükdə isə müəllif hesab edir ki, ölkəmizdə Internet xidmətlərinin göstərilməsi sahəsində fəaliyyətin vahid hüquqi əsasının (bazasının) müəyyən edilməsi, Internet xidmətlərinin həcminin və keyfiyyətinin davamlı artırılması, beynəlxalq standartlara çatdırılması və şəxsiyyətin, cəmiyyətin və dövlətin informasiya təhlükəsizliyinin daha da gücləndirilməsi, insan və vətəndaşların informasiya əldə etmək və yaymaq hüququnun dolğun və səmərəli şəkildə təmin edilməsi üçün "İnternet xidmətlərinin göstərilməsinin hüquqi tənzimlənməsi haqqında" ayrıca qanun qəbul edilməlidir. Həmin qanunda İnternet şəbəkəsinin bütün aspektləri kompleks şəkildə tənzimlənməli, İnternet xidmətlərinin ayrı-ayrı növlərinin göstərilməsinin hüquqi tənzimlənməsi xüsusiyyətləri, bu sahədə hüquqi məsuliyyət məsələləri, İnternet xidmətlərinin göstərilməsi sahəsində dövlət siyasətinin əsas istiqamətləri, İnternet istifadəçiləri barədə məlumatların toplanması, saxlanması və yayılması şərtləri və s. öz əksini tapmalıdır. Bu qanun bütövlükdə İnternet xidmətlərinin göstərilməsi, xüsusən də məlumatların İnternet şəbəkəsi vasitəsi ilə ötürülməsi üzrə fəaliyyətin hüquqi tənzimi

sahəsində mövcud olan boşluqların aradan qaldırılmasında, habelə İnternetin hüquqi tənzimi ilə bağlı anlayışlar aparatının dəqiqləşdirilməsində, onların hüquqi təfsirinin asanlaşmasında mühüm rol oynaya bilər.

Dissertasiyanın **ikinci fəsli "İnformasiya hüquq və azadliqlari insan hüquqlari institutu kimi: beynəlxalq hüquq və dövlətdaxili qanunvericilik"** adlanır və üç yarımfəsildən ibarətdir.

Bu fəslin "**İnformasiya hüququnun anlayışı və onun insan hüquqları sistemində yeri**" adlanan birinci yarımfəslində müəllif göstərir ki, hüquq ədəbiyyatında informasiyaya olan hüququn mahiyyəti ziddiyyətli şəkildə şərh olunur. Bunun başlıca səbəblərindən biri Konstitusiyada "informasiya hüququ" termininin öz əksini tapmamasıdırsa, digər səbəbi informasiya münasibətləri üzrə qanunvericiliyin qeyri-müəyyən sistemi ilə bağlıdır.

"İnformasiya əldə edilməsi haqqında" qanuna aşağıdakı məzmunda normanın əlavə edilməsi məqsədəmüvafiq hesab edir: "9.3.3. ictimai funksiyalar yerinə yetirməyən özəl hüquqi şəxslər - digər şəxslərin hüquqlarının həyata keçirilməsi və ya müdafiəsi tələb olunduğu halda".

İddiaçının fikrincə, İnsan hüquqları üzrə müvəkkilin saytında ictimai funksiyalar yerinə yetirən və qanunla vətəndaşlara informasiya təqdim etmək vəzifəsi daşıyan orqanların siyahısının mütəmadi olaraq dərc olunması Azərbaycanda informasiya azadlığının daha dolğun təmin olunmasına öz müsbət töhfəsini verə bilər.

Tədqiqatçı vətəndaşların informasiya hüquqlarının pozulması hallarının qarşısının alınması və bu hüquqların daha dolğun təmin olunması baxımından bir çox dünya dövlətlərinin təcrübəsində olduğu kimi ayrıca Media Ombudsmanı təsisatının yaradılmasını məqsədəmüvafiq hesab edir.

Müəllifə görə müstəqil konstitusion hüquq kimi informasiyaya olan subyektiv hüquq dedikdə insan və vətəndaşların bilavasitə onların hüquq və azadlıqlarına toxunan sənəd və məlumatlarla tanış olmaq üçün dövlət və yerli özünüidarə qurumlarına və vəzifəli şəxslərə müraciət etmək imkanı da daxil olmaqla, qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, istənilən informasiyanın qanuni yolla sərbəst surətdə axtarılması, əldə



olunması, yayılması, saxlanılması, ötürülməsi, hazırlanması, habelə informasiya ilə bağlı digər hüquqi imkanlar nəzərdə tutulur.

İkinci fəslin **"Fərdi informasiya hüququnun ümumi (publik) informasiya təhlükəsizlik həddi"** adlanan ikinci yarımfəslində qeyd edilir ki, informasiyaya olan hüququn əsas hüquqlardan biri kimi Konstitusiyada təsbit edilməsi onun əhəmiyyətini göstərməklə daha dolğun və ardıcıl həyata keçirilməsini, mümkün məhdudlaşdırma səviyyəsini təmin edir. Konstitusiyada təsbit olunan əsas insan və vətəndaş hüquq və azadlıqları içərisində mühüm yer tutan informasiya hüququnun tanınması və təmin olunması ölkəmizdə insan hüquqlarına dair beynəlxalq prinsip və standartlara əməl olunması tendensiyasının tərkib hissəsi kimi çıxış edir.

Müəllifin qənaətinə görə informasiya cəmiyyəti üçün xarakterik olan informasiya hüququ çoxaspektli istiqamətə malikdir. Bu isə onun konstitusion müddəaların və beynəlxalq sazişlərin əsas prinsiplərinin məzmunundan irəli gələn bir sıra əsas hüquqi imkanları özündə əks etdirməsi ilə bağlıdır. Birincisi, informasiyanın hazırlanması imkanı. İkincisi, informasiyanı ötürmək və yaymaq azadlığı vasitəsilə həyata keçirilən informasiya mübadiləsi imkanı. Üçüncüsü, hər kəsin istənilən məlumatı sərbəst surətdə axtarmaq və əldə etmək hüququ vasitəsi ilə reallaşan informasiyanın əlçatımlı olması imkanı.

Müəllif bu yarımfəsildə apardığı təhlil və ümumiləşdirmələr nəticəsində fərdi informasiya hüquqlarının məhdudlaşdırılması prinsipləri kimi aşağıdakı meyarları qeyd edir: məhdudlaşdırmanın qanuni əsasa malik olması, üstün ictimai marağa xidmət etməsi və demokratik cəmiyyət üçün zəruri olması. Qeyd edilən bu prinsip və ya meyarlar birlikdə tətbiq edilməklə məhdudlaşdırma üçün əsas yaratmalıdır. Əks təqdirdə fərdi informasiya hüququnun məhdudlaşdırılması insan hüquq və azadlıqlarının pozuntusu kimi qiymətləndiriləcək.

İkinci fəslin **"İnformasiya hüququnun təminat (hüquqi məsuliyyət) problemi"** adlanan üçüncü yarımfəslində tədqiqatçı informasiya fəaliyyəti sahəsində hüquq pozuntularına görə məsuliyyəti informasiya hüququnun mühüm tərkib hissəsi kimi xarakterizə edərək göstərir ki, məsuliyyətlə bağlı münasibətlər digər informasiya hüquq münasibətləri ilə yanaşı informasiya hüququnun predmetini təşkil edir. Müəllifin fikrincə, informasiya məsuliyyəti

qanunla müəyyən olunmuş prosessual forma və prosedurlar çərçivəsində informasiya hüquq pozuntusu törətmiş təqsirli şəxsə pozulmuş informasiya hüquq normasının sanksiyası ilə nəzərdə tutulmuş təsir tədbirlərinin tətbiqini nəzərdə tutur. Informasiya hüquq pozuntusu sosial konfliktlərin bir növü və informasiya münasibətləri subyektlərinin qanunla qadağan edilmiş davranışı kimi həmin münasibətlərin iştirakçılarının maraqlarının ziddiyyətliliyini ifadə edir. İddiaçı informasiya hüquq pozuntusunun ümumi əlamətlərinə hüquqazidlik, ictimai təhlükəlilik, təqsirlilik, xüsusi əlamətlərinə isə informasiya sahəsində törədilməsi, informasiya vasitələrindən istifadə edilməklə törədilməsini aid edir və bu əlamətlərə əsasən informasiya hüquq pozuntusuna "informasiya sahəsində informasiya vasitələrindən istifadə edilməklə törədilən hüquqazidd, ictimai təhlükəli, təqsirli əməl (hərəkət və hərəkətsizlik)" kimi anlayış verilməsini təklif edir.

Informasiya sahəsində hüquq pozuntusunun obyektiv tərəfinin əsas əlamətlərinə iddiaçı aşağıdakıları aid edir:

a) hərəkət və ya hərəkətsizliklə informasiya sahəsində hüquq normalarının pozulması;

b) şəxsiyyətin, cəmiyyətin və ya dövlətin informasiya maraqlarına zərər vurulması;

c) informasiya sahəsində ictimai təhlükəli əməllə nəticə arasında səbəbli əlaqənin olması.

Tədqiqatçının fikrincə, informasiya sahəsində hüquq normalarını pozan şəxslərin davranışı hüquqazidd, təqsirli, ictimai təhlükəli əməl olmaqla informasiya hüquq pozuntusunun tərkibini əmələ gətirir və informasiya məsuliyyətinin yaranması üçün əsas kimi çıxış edir.

Daha sonra müəllif informasiya məsuliyyətinin prinsiplərini və informasiya hüquq münasibətlərini tənzim edən qanunvericiliyin pozulmasına görə hüquqi məsuliyyətin müəyyən əsas xüsusiyyətlərini göstərir.

İddiaçı hesab edir ki, "informasiya cinayəti" anlayışı "kibercinayət" anlayışından daha genişdir. Çünki informasiya münasibətləri sahəsində cinayətlər kompyuter vasitələrindən istifadə edilməməklə də törədilə bilər.



Dissertasiya işinin üçüncü fəsli **"İnformasiya hüququ və informasiya təhlükəsizliyi: beynəlxalq hüquq normalari və dövlətdaxili qanunvericilik"** adlanır və beş yarımfəsli əhatə edir.

Üçüncü fəslin **"İnformasiya təhlükəsizliyi informasiya hüququnun institutu kimi"** adlanan birinci yarımfəslində göstərilir ki, informasiya təhlükəsizliyinin obyekti kimi şəxsiyyətin, cəmiyyətin və dövlətin informasiya sahəsində maraqları çıxış edir. İnformasiya təhlükəsizliyinin subyektlərinə isə fəaliyyətləri informasiya sahəsində təhlükəsizlik tədbirlərinin hazırlanması ilə bağlı olan dövlət, hakimiyyət orqanları, ictimai birliklər, təşkilatlar və vətəndaşlar aiddir.

İddiaçı hesab edir ki, milli təhlükəsizlik informasiya təhlükəsizliyinin təmin olunmasından əhəmiyyətli dərəcədə asılıdır. Belə ki, milli təhlükəsizliyin təmin olunmasının mühüm ünsürlərindən birini müvafiq sahədə dövlət siyasətinin bütün əsas həlqələrini əlaqələndirən informasiya təhlükəsizliyi təşkil edir.

Tədqiqatçı informasiya təhlükəsizliyinin anlayışı və mahiyyəti ilə bağlı hüquq ədəbiyyatında irəli sürülən fikirlərin və informasiya təhlükəsizliyi ilə bağlı beynəlxalq aktların və xarici ölkələrin qanunvericiliyinin təhlili və ümumiləşdirilməsi əsasında informasiya təhlükəsizliyinə aşağıdakı kimi anlayış verilməsini təklif edir: "İnformasiya təhlükəsizliyinin hüquqi istiqamətini istənilən təhdidi qarşılaya biləcək normativ-hüquqi şəraitin, maddi və institusional mexanizmlərin formalaşdırılması təşkil edir. İnformasiya təhlükəsizliyi şəxsiyyətin, cəmiyyətin və dövlətin zərərli və ya hüquqazidd informasiyalardan müdafiə olunmuş vəziyyətini ifadə edən, informasiyanı və informasiya sistemlərini qanunsuz girişdən və ya informasiyanın dəyişdirilmədən və məhv edilmədən mühafizəsini, informasiya sahəsində müxtəlif təhdidlərin aşkar edilməsi və neytrallaşdırılması üzrə tədbirlərin görülməsini nəzərdə tutan mürəkkəb kateqoriyadır".

Müəllif hesab edir ki, qanunvericiliyimizdə, xüsusən də "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunun (İnformasiyanın müdafiəsi adlanan) 5-ci fəslində informasiya təhlükəsizliyinin anlayışı verilə bilər. Bu fəslin adı "İnformasiya təhlükəsizliyi və informasiyanın müdafiəsi" kimi ifadə edilə bilər.

Üçüncü fəslin ikinci yarımfəsli “**İnformasiya təhlükəsizliyi üzrə beynəlxalq əməkdaşlığın forma və istiqamətləri**” adlanır. Burada müəllif belə bir fikir irəli sürür ki, informasiya kommunikasiya sahəsini də əhatə edən qloballaşma dövründə dövlətlər arasında əlaqələrin informasiya texnologiyalarına əsaslanan infrastrukturlardan asılılığı daha çox artır. Informasiya təhdidlərinin və informasiya cinayətkarlığının beynəlxalq xarakter kəsb etməsi həmin təhdidlərin qarşısının alınması üzrə razılaşdırılmış qərarların qəbul edilməsi və müvafiq tədbirlərin görülməsi üçün dövlətlərin informasiya təhlükəsizliyi sahəsində əməkdaşlığını aktual və zəruri edir. Beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsi məsələsini aktual və zəruri edən başlıca faktor müasir dövrdə İKT-dan beynəlxalq sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsi vəzifələri ilə bir araya sığmayan məqsədlərlə istifadə oluna bilməsi imkanı ilə bağlıdır.

Tədqiqatçı bu yarımfəsildə apardığı təhlilləri ümumiləşdirərək belə qənaətə gəlir ki, bəşəriyyətin müasir inkişaf mərhələsində qlobal informasiya təhlükəsizliyi qlobal informasiya cəmiyyəti ilə sıx surətdə bağlıdır. Çünki qlobal informasiya cəmiyyətinin qurulması qlobal informasiya təhlükəsizliyinin aktuallığını daha da artırır. Müasir dövrdə informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində beynəlxalq əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, bu sahədə beynəlxalq hüquq normalarının qəbulu üzrə səylərin artırılması hər bir dövlətin bütövlükdə təhlükəsizliyi üçün müstəsna dərəcədə mühüm əhəmiyyət kəsb edir.

Müəllif beynəlxalq informasiya təhlükəsizliyini “informasiya məkanında dünyada stabilliyin pozulmasını və dövlətlərin təhlükəsizliyi üçün təhdidlərin yaradılmasını istisna edən beynəlxalq münasibətlər vəziyyəti” kimi müəyyən edir.

Üçüncü fəslin “**Qloballaşan müasir dövrün transsərhəd informasiya münasibətlərinin beynəlxalq hüquqi tənzimlənməsinin xüsusiyyətləri**” adlanan üçüncü yarımfəslində iddiaçı beynəlxalq informasiya mübadiləsində beynəlxalq hüquqi tənzimetmənin aşağıdakı problemlərlə bağlı olaraq daha da aktuallaşdığını qeyd edir:

a) informasiya texnologiyalarından silah kimi istifadə edilməsi;



b) informasiya terrorizmi;

c) kompüter cinayətkarlığı;

d) fərdi məlumatların və şəxsi həyatın toxunulmazlığının təmin edilməsi;

e) müəlliflik hüququ və əlaqəli hüquqların qorunması;

ə) müxtəlif sosial şəbəkələr və ictimai təhlükəsizlik;

f) uşaqların və yeniyetmələrin psixoloji sağlamlığı və tərbiyəsi;

g) virtual asılılıq və s.

Müəllif göstərir ki, informasiyaya çıxış və ya sərbəst şəkildə informasiya əldə etmək imkanı müasir sivil dövləti şərtləndirən mühüm beynəlxalq standartlardan və demokratiyanın əsas göstəricilərindən biridir. Bu imkan vətəndaşların məlumatsızlıqdan irəli gələn kortəbii fəaliyyətinin qarşısını almaqla onların daha düzgün, səmərəli və məsuliyyətli seçimlər etməsini təmin edir. Müasir dövrdə beynəlxalq birlik ayrı-ayrı dövlətlərin informasiya sahəsində inkişafına xüsusi diqqət göstərir. Bu isə cəmiyyətin, şəxsiyyətin və konkret dövlətin informasiya təhlükəsizliyini beynəlxalq aktlarla təmin etməyə və dövlətdaxili informasiya qanunvericiliyini bu yolla daha da təkmilləşdirməyə imkan verir. Beynəlxalq təcrübə göstərir ki, informasiya münasibətləri leqallaşdırılarkən, ilk növbədə, ümumbəşəri prinsiplər, xüsusən də dövlətlərin suverenliyi və insan hüquqlarının aliliyi nəzərə alınmalıdır.

Üçüncü fəslin dördüncü yarımfəsli **“İnformasiya hüquq münasibətlərinin tənzimi sahəsində beynəlxalq və milli təşkilati mexanizmlər”**in təhlilinə həsr edilmişdir. Müəllif göstərir ki, ümumi səlahiyyətli dövlətlərarası təşkilatlar içərisində informasiya münasibətlərinin beynəlxalq hüquqi tənzimi sahəsində aparıcı rol BMT-yə məxsusdur. Dövlətlərin informasiya sahəsində mövqelərinin yaxınlaşdırılması və uzlaşdırılması demək olar ki, fəaliyyətə başladığı andan etibarən BMT-nin əsas funksiyalarından birini təşkil etmişdir. Informasiya fəaliyyətinin normativ təminatında başlıca rol BMT BA-na məxsusdur.

İnformasiya münasibətlərinin tənzimində milli institutların da mühüm rolunu qeyd edən müəllif belə bir yekun nəticəyə gəlir ki, informasiya təhlükəsizliyinin təmin olunması və informasiya münasibətləri üzrə çoxsaylı beynəlxalq və dövlətdaxili institusional

mexanizmlərin təsis edilməsi də informasiya hüququnun bərqərar olması prosesini bir daha təsdiq edir. Bu mexanizmlər informasiya hüquq münasibətlərinin dayanıqlı və spesifik tənzimlənməsini təmin edirlər. BMT BA tərəfindən 10 dekabr 1948-ci ildə qəbul edilmiş İnsan Hüquqlarının Ümumi Bəyannaməsi dövlətlərin informasiya sahəsində insan hüquqları üzrə mövqelərinin yaxınlaşdırılmasında xüsusi əhəmiyyətə malikdir. BMT BA-nın qətnamələri informasiya sahəsində dövlətlərarası əməkdaşlıq üzrə beynəlxalq müqavilələrin hazırlanması və qəbulu üçün zəmin yaradır.

Üçüncü fəslin beşinci yarımfəsli "**İnformasiya hüququ sahəsində beynəlxalq standartların dövlətdaxili qanunvericiliyə implementasiyası**" adlanır. Tədqiqatçı burada qeyd edir ki, müasir inteqrasiya prosesləri beynəlxalq hüquqla milli hüququn qarşılıqlı nisbət məsələsində onlara müxtəlif hüquq sistemləri aspektində deyil, universal hüquqi sistemin eyni təyinatlı, lakin müxtəlif sferalı normalardan ibarət yarımsistemlər kimi baxılmasını zəruri edir. Beynəlxalq hüquq ilə dövlətdaxili hüququn qarşılıqlı nisbətində ənənəvi dualist və monist konsepsiya və nəzəriyyələr müasir dövrün qlobal iqtisadi sisteminin hüquqi tənzimlənməsi üçün qəbul edilə bilməz.

Müəllifin fikrincə, beynəlxalq hüquq və dövlətdaxili hüququn qarşılıqlı əlaqəsi qarşılıqlı implementasiya məsələsinin həlli ilə təmin edilir. Belə ki, implementasiya beynəlxalq hüquq normalarının milli hüquqa gətirilməsi prosesini, üsul, forma və vasitələrini ifadə edir.

Müəllifin qənaətinə görə "Normativ hüquqi aktlar haqqında Konstitusiya Qanununun" 22-ci maddəsi AR Konstitusiyasının 10-cu maddəsində ifadə edilən "ümumi transformasiya" siyasətini daha da konkretləşdirir. Məlum olduğu kimi informasiya hüququ sahəsində mütləq hüquq və azadlıq anlayışı qəbul edilməməkdədir. Lakin həmin hüquqların qanunvericiliyə və tərəfdar çıxılan beynəlxalq hüquq normalarına uyğun olaraq məhdudlaşdırılması beynəlxalq təcrübəyə, həmçinin beynəlxalq hüququn hamılıqla qəbul edilən prinsip və normalarına uyğun olmalıdır. Bəzi qanunvericilik aktlarında "ümumtanınmış prinsip və normalara" istinad edilsə də, bəzi qanunvericilik aktlarında belə istinadın olmaması təəssüf doğurur. Məsələn, Şəxsi məlumatlar haqqında AR-in 2010-cu il Qanununun 6-cı maddəsi şəxsi məlumatların toplanması zamanı



dövlətin tədbirlərinə həsr edilib. Lakin, hüquq və azadlıqların qorunması zamanı ümumi təminat meyarı kimi beynəlxalq hüququn hamılıqla qəbul edilən prinsip və normalarına istinad Qanunda təsbit edilməyib.

İddiaçı hesab edir ki, informasiya hüququ sahəsində beynəlxalq müqavilə normalarına eləcə də, beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə münasibət ifadə edilməli, beynəlxalq müqavilə normalarının Konstitusiyamızın istisna ilə bağlı formulu nəzərə alınmaqla prioriteti qanunvericilik qaydasında təsbit edilməlidir.

Müəllif bu yarımfəsildə apardığı təhlilləri ümumiləşdirərək göstərir ki, bütövlükdə insan və vətəndaş hüquqları, o cümlədən informasiya hüququ sahəsində beynəlxalq standartların milli qanunvericiliyə implementasiyası üçün Konstitusiyamızda mükəmməl hüquqi əsas müəyyən edilmişdir. Azərbaycan Respublikası Konstitusiyasının 46-50-ci maddələrində mətbuat azadlığı ilə bağlı mühüm beynəlxalq standartlara cavab verən mütərəqqi müddəalar öz əksini tapmışdır. Əsas məsələ bu hüququn prosedur qaydalarla reqlamentləşdirilməsi zamanı qanunsuz məhdudiyyətə məruz qoyulmamasıdır.

Dissertasiya işinin nəticə hissəsində tədqiqatla əlaqədar əldə edilmiş mühüm təklif və nəticələr qeyd edilmiş, beynəlxalq və dövlətdaxili hüquq üçün onların nəzəri-praktik əhəmiyyəti ifadə edilmişdir.

**Dissertasiya tədqiqatı ilə əlaqədar müəllif tərəfindən aşağıdakı elmi əsərlər çap edilmişdir.**

**1.** Kütləvi informasiya vasitələrinin anlayışı / 10 Dekabr Beynılxalq insan hüquqları gününə həsr edilmiş beynəlxalq elmi-praktik konfransın materialları. Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2013, s. 252-256

2. Konstitusion hüquqlardan biri kimi informasiya əldə etmək hüququnun məzmunu // Beynəlxalq hüquq və inteqrasiya problemləri (elmi-analitik və praktiki jurnal), Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2014, № 3(39) s. 245-252

3. İnformasiya hüququnun konstitusion hüquqlrdan biri kimi anlayışı // Qanun, 2015, № 02(244), s. 52-61

4. Kütləvi informasiya vasitələrinin hüquqi tənzimi // Qanun, 2015, № 03(245), s. 54-61

5. Интернет-право и свобода информации // Наука і правоохорона, Міністерство внутрішніх справ Украіни Державний науково-дослідний інститут, Київ, 2015, № 2, s. 277-284

6. Правовые основы регулирования в информационной сфере // Международный научный журнал «Право и политолгия», 2015, № 31, s. 10-14

7. İnformasiya hüququnda məsuliyyətin növləri / Ümummilli lider H.Ə.Əliyevin anadan olmasının 93-cu ildönümünə və Azərbaycan MEA Fəlsəfə və Hüquq İnstitutunun 70 illiyinə həsr edilmiş "Hüquq elminin müasir problemləri: Azərbaycan Respublikasinda insan hüquq və azadliqlarinin müdafiəsinin yeni tendensiyalari" mövzusunda VI respublika elmi-nəzəri konfransının materialları, Bakı, 2016 (5-6 may), s. 276-27

8. İnformasiya təhlükəsizliyi sahəsində beynəlxalq hüquq və milli qanunvericilik// Nəqliyat hüququ, 2016, № 04 (çapdadır).



## Резюме

Представленная Гуламом Гейбат оглу Шюкюровым диссертационная работа на тему «Сравнительный анализ международных правовых норм и законодательства Азербайджанской Республики в области информационного права» на соискание ученой степени доктора философии по праву по специальности 5603.01 – «Международное право; права человека», являясь самостоятельной, творческой и завершенной исследовательской работой и отражая совершенно новые научные положения, посвящена проблемам сравнительного анализа международных правовых норм и законодательства Азербайджанской Республики. Диссертация состоит из введения, охватывающих 11 параграфов 3 глав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность темы, освещается степень ее разработанности в научном плане, определяются цель и задачи исследования, формируются выносимые на обсуждение главные положения и раскрывается прикладное значение работы.

В названной «Информация, средства ее получения и система правовой гарантии» и состоящей из трех параграфов I главе объектом исследования являются информация, информационное общество и информационное пространство, модели правового регулирования информационных отношений, современные средства приобретения информации (правовой статус Интернет-провайдеров).

II глава называется «Информационные права и свободы как институт прав человека: международное право и внутригосударственное законодательство» и состоит из 3 параграфов. В главе исследовано понятие информационное право и ее место в системе прав человека, вопросы, связанные с общим (публичным) пределом безопасности индивидуального информационного права, проблемой гарантии информационного права (правовая ответственность).

Охватывающая пять параграфов III глава диссертационной работы посвящена вопросам соотношения и сравнительного анализа международных правовых норм и внутригосударственного законодательства в области информационного права и информационной безопасности.

В заключении отмечены полученные в результате исследования важные выводы и предложения, указано их теоретико-практическое значение для международного и внутригосударственного права.

## Summary

Gulam Heybat oglu Shukurmov`s dissertation work presented for attaining the degree of PhD in the specialisation 5603.01 – "International law; human rights"called "Comparative analysis of international norms and the legislation of the Republic of Azerbaijan in the field of information law", being independent, creative and completed work, containing brand new provisions, is dedicated to the problems of comparative analysis of international norms and the legislation of the Republic of Azerbaijan in the field of information law.

In the first chapter,named "Information, the ways of its acquisition and the systems of its legal providing" and contained 3 subchapters, information, information society and information space, the models of legal regulation of information relations, modern ways of information acquisition (as well as, legal status of internet providers) have been researched.

"İnformasiya hüquq və azadliqlari insan hüquqlari institutu kimi: beynəlxalq hüquq və dövlətdaxili qanunvericilik" adlanan və üç yarımfəsildən ibarət olanan ikinci fəsildə informasiya hüququnun anlayışı və onun insan hüquqları sistemində yeri, fərdi informasiya hüququnun ümumi (publik) informasiya təhlükəsizlik həddi, informasiya hüququnun təminat (hüquqi məsuliyyət) problemi ilə bağlı məsələlər araşdırılmışdır.

In the second chapter, named "Information rights and freedoms as one of the institutes of human rights: international law and domestic legislation" and contained 3 subchapters, the objects related to the concept of the right to information and its place in the system of human rights, the common (public) information security extent of the individual right to information, the problem of providing of the right to information have been explored.

The third chapter of the dissertation work, which includes five subchapters, has been dedicated to the problems of the correlation and comparative analysis of international norms and domestic legislation in the field of information law and information security.

The conclusion part of the dissertation work is comprised of suggestions that are made and results that are achieved in the end of the dissertation work and theoretical and practical importance for the international and domestic law.




**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ГУЛАМ ГЕЙБАТ оглы ШУКЮРОВ**

# СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ МЕЖДУНАРОДНЫХ ПРАВОВЫХ НОРМ И ЗАКОНОДАТЕЛЬСТВА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В ОБЛАСТИ ИНФОРМАЦИОННОГО ПРАВА

**Специальность: 5603.01 - «Международное право; права человека»**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора философии по праву**

**БАКУ – 2016**